ELÇİN HÜSEYNLİ

Azərbaycan Respublikasının İtaliya Respublikasında fövqəladə və səlahiyyətli səfiri

Diplomatik fəaliyyəti

- Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsi, referent və attaşe, 2003-2005.
- Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfirliyi / Azərbaycan Respublikasının Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) yanında Daimi Nümayəndəliyi, attaşe, üçüncü katib və ikinci katib, Vyana, Avstriya, 2005-2009.
- Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Təhlükəsizlik problemləri idarəsi, ikinci katib, 2010-2012.
- Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyi, birinci katib, Nyu York, ABŞ, 2012-2014.
- Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü dövründə Milli Nümayəndə Heyətinin Alternativ Siyasi Koordinatoru, 2012-2013.
- Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Beynəlxalq əlaqələr şöbəsi, şöbə müdirinin müavini və Protokol sektorunun müdiri, 2014-2017.
- Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Azərbaycan Respublikasının Birinci Vitse-Prezidentinin Katibliyi, böyük məsləhətçi, 2017-2020.
- Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsi, Amerika, Qərbi Avropa və Okeaniya üzrə sektor müdiri, 2020-2023.
- Azərbaycan Respublikasının Hindistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri (qeyri-rezident – Banqladeş Xalq Respublikası, Butan Krallığı, Maldiv Respublikası, Nepal və Şri-Lanka Demokratik Sosialist Respublikasında), 2023-2026.
- Azərbaycan Respublikasının İtaliya Respublikasında fövqəladə və səlahiyyətli səfiri, 28 iyul 2026-cı il

Təhsili

- Bakı Dövlət Universiteti (bakalavr pilləsi, Beynəlxalq münasibətlər ixtisası, Fərqlənmə diplomu), 1997-2001.
- Bakı Dövlət Universiteti (magistr pilləsi, Beynəlxalq münasibətlər ixtisası, Fərqlənmə diplomu), 2001-2003.
- Corc C. Marşal adına Avropa Təhlükəsizlik Araşdırmaları Mərkəzi (2003, Qarmiş-Partenkirxen, Almaniya), Türkiyə Xarici İşlər Nazirliyinin Diplomatiya Akademiyası (2004, Ankara, Türkiyə), Cenevrə Təhlükəsizlik Siyasəti Mərkəzi (2005, Cenevrə, İsveçrə) və Azərbaycan ADA Universiteti (2015, Bakı), xarici və təhlükəsizlik siyasəti proqramlarının məzunu.

Təltifləri

- “Dövlət qulluğunda fərqlənməyə görə” medal, Azərbaycan Respublikası Prezidentinin 2702 №-li, 23 iyun 2021-ci il tarixli Sərəncamı